***<u>Təsdiq edirəm:</u>***

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**

**Şəki filialının direktoru: Dos. R.A.Rasulov**

**"15" dekabr 2018-ci il**

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Kompüter Mərkəzinin Əsasnaməsi

1.Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Kompüter Mərkəzi ADPU-nun Şəki filialının struktur vahididir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Kompüter Mərkəzi fəaliyyətini Ali Təhsil müəssisəsinin Nümunəvi Əsasnaməsinə və Nizamnaməsinə müvafiq hazırlanmış ADPU-nun Əsasnaməsi və Nizamnaməsi əsasında həyata keçirir.

2. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Kompüter Mərkəzi ADPU-nun Səki filialında səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununun yaradılmasına, təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsi ilə təhsilin məzmununun səmərəli mənimsənilməsinə, müasir tələblərə cavab verən təhsil infrastrukturunun formalaşmasına, tədris prosesinin İKT üçün açıqlıq mühitinin yaradılmasına yönələn müvafiq funksiyalar daşıyır.

3. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Kompüter Mərkəzinə rəhbərliyi ADPU-nun Şəki filialının Kompüter Mərkəzinin müdiri həyata keçirir. Azərbaycan Dövlət Pedaqoji

Universitetinin Şəki filialının Kompüter Mərkəzinin müdiri vəzifəsinə təyinat ADPU-nun Şəki filialının direktorunun səlahiyyətinə aiddir.

4. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Kompüter Mərkəzi müdir, kompüter mütəxəssisləri, operatorlarlardan ibarət mütəxəssis heyətilə öz funksiyalarını həyata keçirir.

5. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının iş planına uyğun, filial rəhbərliyinin tapşırıq və tövsiyələrini nəzərə alan, Elmi Şuranın müvafiq qərarlarına əsaslanan, tədris ilinin müvafiq çağırışları ilə şərtlənən "Kompüter mərkəzi üçün illik fəaliyyət planı"nın tərtibini təmin etmək kompüter mərkəzinin müdirinin səlahiyyətinə aiddir.

- iş planının icrası ilə əlaqədar əməkdaşlar arasında vəzifə(iş)bölgüsü aparmaq və bölgü üzrə işlərin vaxtında və məsuliyyətlə icrasına nail olmaq;

- filialın strukturlarında mövcud olan kompüterlərin tədris ilində davamlı işləkliyini diqqət mərkəzində saxlamaq;

-tələbələrin Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Web saytında qeydiyyatdan keçməsini təmin etmək və ona nəzarət etmək;

-informatika yönümlü dərslərin tədrisini kompüter mərkəzində təşkil etmək və dərslərin yüksək səviyyədə həyata keçirilməsinə nəzarət etmək;

-filialın digər əsas strukturlarının kompüterlərinin ümumi şəbəkə resurslsrı ilə təmin etmək və həmçinin həmin strukturlarda internet bağlantısını təşkil etmək;

- kompüter tədris otaqlarının lokal şəbəkəsinin qurulmasını təşkil etmək və düzgün işləməsinə nəzarət etmək;

-tələbələrin dərs müddətində müxtəlif dərs tapşırıqlarının yerinə yetirilməsi məqsədilə və həmçinin dərsdənkənar vaxtlarda kompüterlərdən və internetdən müstəqil istifadəsini təmin etmək;

-kompüter avadanlıqlarının alınması, quraşdırılması və texniki xidmət işini təşkil etmək və bu sahədə qarşıya çıxan problemlərin aradan qaldırılmasına nəzarət etmək;

- Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Web saytına müntəzəm olaraq xəbərlərin daxil edilməsinə, müxtəlif strukturlarda, bölmələrdə ümumi yeniliklərin qeyd edilməsinə, dəyişikliklərin yerinə yetirilməsinə, saytın operativ işləməsinə nəzarət etmək;

-tələbələr arasında kompüter biliklərini yoxlamaq üçün sorğular keçirmək;

-müxtəlif fənlər üzrə dərslərin kompüter mərkəzinin otaqlarında keçirilməsinə şərait yaratmaq;

-ehtiyacı olan müəllimlərə multimedya avadanlıqlarından istifadə etməyi öyrətmək;

-digər dərs otaqlarında da İKT-dən istifadə etməklə dərslərin təşkilinə nəzarət etmək;

-kompüter təlimi-maarifləndirilməsi məqsədilə öyrədici dərslər və ya təlimati seminarlar təşkil etmək.

6. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Kompüter Mərkəzinin mütəxəssislərinin vəzifə məsuliyyətinə aşağıdakılar daxildir:

- Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Kompüter Mərkəzinin müdirinin cari taşırıqlarını operativ şəkildə icra etmək;

- iş planı əsasında müəyyən olunan funksiyaları nəzərdə tutulan zaman kəsiyində məsuliyyətlə yerinə yetirmək;

- hər bir tələbənin müvafiq təhsil ehtiyaclarının ödənilməsi ilə bağlı qarşıya çıxan məsələləri tələbənin maraqlarına uyğun şəkildə ödəməyə çalışmaq;

- müqavilə öhdəliklərinin qeyd-şərtsiz icrasına yönəlmək, bu yönümdə qarşıya qoyulmuş vəzifələri ardıcıl və sistemli şəkildə yerinə yetirmək;

- Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının strukturlarında yerləşən bütün kompüter avadanlıqlarının səmərəli və qaydasında işləməsinə nəzarət etmək.

7. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Kompüter Mərkəzinin operatorlarının vəzifə məsuliyyətinə aşağıdakılar daxildir:

- Kompüter Mərkəzinin müdirinin cari taşırıqlarını operativ şəkildə icra etmək;

- iş planı əsasında müəyyən olunan funksiyaları nəzərdə tutulan zaman kəsiyində məsuliyyətlə yerinə yetirmək;

- hər bir tələbənin müvafiq təhsil ehtiyaclarının ödənilməsi ilə bağlı qarşıya çıxan məsələləri tələbənin maraqlarına uyğun şəkildə ödəməyə çalışmaq;

-müqavilə öhdəliklərinin qeyd-şərtsiz icrasına yönəlmək, bu yönümdə qarşıya qoyulmuş vəzifələri ardıcıl və sistemli şəkildə yerinə yetirmək;

- auditoriyada müəllim və tələbələrin kompüter avadanlıqlarını idarə etməsinə köməklik göstərmək, avadanlıqların qaydasında işləməsinə nəzarət etmək.

8. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Kompüter Mərkəzinin müdiri iş planına müvafiq və ya özünün təşəbbüsü ilə yığıncaqlar keçirir, yığıncaqlarda qarşıya qoyulmuş vəzifələrin icra vəziyyəti təhlil olunur, müvafiq qərarlar qəbul olunur.

9. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Kompüter Mərkəzinin müdiri hər bir işçinin vəzifə məsuliyyəti ilə bağlı Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının rəhbəri qarşısında vəsatət qaldıra bilər.

10. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Kompüter Mərkəzinin müdiri ildə iki dəfədən az olmayaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Elmi Şurası və ya rəhbərliyi qarşısında hesabatla çıxış edir.

11. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Kompüter Mərkəzinində kargüzarlıq fəaliyyəti "Azərbaycan Respublikasında kargüzarlıq fəaliyyəti haqqında" qanunvericilik aktları əsasında hazırlanmış təlimatların tələblərinə uyğun şəkildə həyata keçirilir.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının**

**Kompüter Mərkəzinin**

# Əsasnaməsi

**ŞƏKİ -2019**